# Çexovanın boyunbağısı Gəncədə

**Bu günlərdə 110 yaşı tamam olan Xalq artisti Rəmziyyə Veysəlova uzun illər Gəncə Dövlət Dram Teatrında çalışıb, bir-birindən sanballı obrazları ilə yadda qalıb. Təbii ki, görkəmli aktrisanın həyatında bir çox maraqlı hadisələr də olub. Bunlardan biri boyunbağı əhvalatıdır.**

Həmin əhvalatı Rəmziyyə Veysəlovanın gəlini, onun oğlu Çingiz Yusifzadənin ömür-gün yoldaşı, yazıçı-dramaturq Nüşabə Əsəd Məmmədli danışıb. Teatrşünas Anar Ərtoğrul Burcəliyev Nüşabə xanıma istinadla yazır ki, 1941-ci ildə alman faşistləri Moskvaya yaxınlaşanda Moskva Bədaye Teatrı Gəncəyə köçürülüb. Rusiyanın böyük



sənətkarları – SSRİ Xalq artistləri Vasili Kaçalov, Faina Ranevskaya, yazıçı Anton Pavloviç Çexovun həyat yoldaşı Olqa Knipper-Çexova və başqaları o zaman Gəncədə yaşayıblar, azərbaycanlı həmkarları ilə çiyin-çiyinə işləyiblər.

Qayınanası haqqında danışan Nüşabə xanım daha sonra bildirir:

– Uzun illər evimizin divarından Əşrəf Yusifzadə ilə birgə Rəmziyyə xanımın da portreti asılmışdı. Bu şəkildə onun boynundan Anna Axmatovanın boyunbağısından var idi (Anna Axmatovanın şəkillərində görmüşdüm). Mən heç vaxt Rəmziyyə xanımdan bu boyunbağı ilə bağlı heç nə soruşmurdum. Ancaq ölümündən bir neçə ay qabaq Rəmziyyə xanım məndən xahiş etdi ki, ona kömək edib qonaq otağına aparım. O, içəri girəndə öz şəklinin qarşısında dayanıb baxdı və üzünü mənə tutub soruşdu:

– Nuşa, sən bilirsən bu boyunbağını mənə kim verib?

– Yox, – dedim.

O, söylədi ki, bir dəfə Gəncə Teatrında, deyəsən, Lermontovun "İki qardaş" pyesi oynanılırdı. Həmin tamaşada böyük sənətkarımız Məmmədrza Şeyxzamanovla tərəf-müqabil olan Rəmziyyə xanım səhnədə elə parlaq çıxış edib ki, zalda həmkarları ilə əyləşən Olqa Knipper-Çexova öz boyunbağısını onun boynuna taxıb.

– Mən bu boyunbağını düz 17 il saxladım, – dedi Rəmziyyə xanım. – Ancaq 1958-ci ildə "Nəsrəddin şah" tamaşasında həmkarım Sədayə Mustafayeva elə gözəl oynadı ki, mən boyunbağını ona bağışladım. Bu rolu vaxtı ilə mən də oynamışdım, lakin Sədayənin ifası məni elə



titrətdi ki, bəlkə də, böyük yazıçı Çexovun əli toxunmuş boyunbağını onun boynundan asdım.

Daha sonra Nüşabə xanım nəql edir ki, düz 42 ildən sonra, yəni 2000-ci ildə qızım Aysel universiteti bitirib Gəncəyə qayıdanda, çox sevdiyim sənətkar, Xalq artisti Sədayə Mustafayeva bizə gəldi. "Məni və uşaqlarımı öpdü. – Qızıcan, – dedi, – məndə Rəmziyyə xanımın Knipper-Çexovanın ona bağışladığı bir yadigarı var. İstəyirəm onu Rəmziyyə xanımın öz nəvəsinə bağışlayım". O həmin boyunbağını qızıma bağışladı.

Beləliklə, Aysel üçün bu, artıq 3 korifey sənətkarın – Olqa Knipper-Çexovanın, Rəmziyyə Veysəlovanın və Sədayə Mustafayevanın əziz yadigarı oldu.

***Ə.DOSTƏLİ***
***XQ***

Xalq qəzeti .- 2024.- 14 fevral, № 33.- S.10.